**Səbinə Balayeva**
*ARTİ-nin Metodik xidmətin əlaqələndirilməsi şöbəsinin müdiri*

# Məktəbəsaslı metodik xidmət peşəkar inkişafın əsas dəstək mexanizmi kimi

Son illər müəllimlərin peşəkar inkişafına dair yanaşmalarda mühüm dəyişikliklər baş vermişdir. Əvvəllər peşəkar inkişaf əsasən məktəbdənkənar təlim və seminarlarla əlaqələndirildiyi halda, müasir yanaşmalar müəllimlərin öz iş mühitində öyrənməsinin daha effektiv olduğunu göstərir. Bu baxımdan məktəbəsaslı metodik xidmət müəllim inkişafının ən vacib dəstək mexanizmlərindən biri hesab olunur.

Məktəbəsaslı metodik xidmət müəllimlərin gündəlik fəaliyyətləri ilə birbaşa əlaqəli şəkildə təşkil edilən peşəkar inkişaf sistemidir. Bu modeldə müəllimlərin inkişaf ehtiyacları məktəbin mövcud vəziyyəti, şagird nailiyyətləri, dərsdinləmə nəticələri və məktəbin strateji prioritetləri əsasında müəyyən edilir.

Timperlinin peşəkar öyrənmə modelinə görə, müəllim inkişafı yalnız yeni biliklərin əldə olunması deyil, həmin biliklərin sinif təcrübəsində tətbiqi və nəticələrinin təhlili ilə tamamlanmalıdır. Məktəbəsaslı metodik xidmət bu prosesin bütün mərhələlərini əhatə edir.




Bu sistem çərçivəsində:

- inkişaf ehtiyacları müəyyənləşdirilir;
- fəaliyyət planları hazırlanır;

- dərsdinləmələr həyata keçirilir;
- metodik görüşlər təşkil olunur;
- inkişafyönlü rəyvermə aparılır;
- nəticələr monitorinq edilir.

Araşdırmalar göstərir ki, məktəb daxilində təşkil olunan peşəkar inkişaf fəaliyyəti müəllim davranışlarında daha davamlı dəyişiklik yaradır.

Müəllimlərin peşəkar inkişafı ilə bağlı ən genişmiqyaslı beynəlxalq tədqiqatlardan biri İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT - OECD) tərəfindən həyata keçirilən Tədris və Öyrənmə üzrə Beynəlxalq Sorğudur (Teaching and Learning International Survey – TALIS). TÖBS – TALIS müəllimlərin iş şəraiti, peşəkar inkişaf fəaliyyəti, məktəb rəhbərliyi və tədris təcrübələri ilə bağlı məlumatların toplanmasını nəzərdə tutur və dünyanın onlarla ölkəsində həyata keçirilir.

TALIS 2018 tədqiqatında 48 ölkə və iqtisadiyyat üzrə 260 mindən çox müəllim və məktəb rəhbərinin məlumatları təhlil edilmişdir. Araşdırmanın nəticələri göstərmişdir ki, müəllimlərin peşəkar inkişafı təhsilin keyfiyyətinin yüksəldilməsində əsas amillərdən biridir və bu inkişafın effektivliyi birbaşa olaraq müəllimlərə təqdim edilən dəstək mexanizmlərindən asılıdır.

Tədqiqat nəticələrinə əsasən müəllimlərin 94 faizindən çoxu son bir il ərzində ən azı bir peşəkar inkişaf fəaliyyətində iştirak etmişdir. Lakin İƏİT qeyd edir ki, iştirak səviyyəsinin yüksək olması hər zaman keyfiyyətli nəticələr demək deyil. Ən böyük təsir müəllimlərin gündəlik peşə fəaliyyətləri ilə birbaşa əlaqəli olan və davamlı xarakter daşıyan inkişaf proqramlarında müşahidə edilmişdir.

TALIS 2018 nəticələrinə görə müəllimlər peşəkar inkişaf baxımından ən çox aşağıdakı istiqamətlərdə ehtiyac hiss etmişlər:

- xüsusi təhsil ehtiyacları olan şagirdlərlə iş;
- informasiya-kommunikasiya texnologiyalarının tədrisdə tətbiqi;
- şagird davranışlarının idarə olunması;
- fərdiləşdirilmiş təlim strategiyaları;
- qiymətləndirmə metodları;
- fənlərarası inteqrasiya;
- çoxmədəniyyətli siniflərin idarə olunması.

Araşdırma göstərmişdir ki, müəllimlərin peşəkar inkişaf fəaliyyətlərində iştirakını məhdudlaşdıran əsas amillər vaxt çatışmazlığı, iş yükünün çoxluğu və uyğun inkişaf

proqramlarının əlçatan olmamasıdır. Bu səbəbdən İƏİT peşəkar inkişafın məktəbin gündəlik fəaliyyətinə inteqrasiya edilməsini tövsiyə edir.




**Şəkil 1. Müəllimlərin peşəkar inkişaf ehtiyacları (OECD TALIS 2018)**

TALIS nəticələri müəllim əməkdaşlığının peşəkar inkişafın ən güclü dəstək mexanizmlərindən biri olduğunu göstərmişdir. Müntəzəm olaraq həmkarları ilə dərs planlaşdıran, təcrübə paylaşan və birgə problemləri müzakirə edən müəllimlərdə peşəkar özünəinam səviyyəsi daha yüksək olmuşdur. OECD bu nəticəyə əsaslanaraq peşəkar öyrənmə icmalarının inkişaf etdirilməsini təhsil sistemləri üçün prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir.

Araşdırmanın diqqət çəkən nəticələrindən biri də məktəb rəhbərliyinin və metodik dəstəyin müəllimin inkişafına təsiri ilə bağlıdır. Məlum olmuşdur ki, məktəb rəhbərləri tərəfindən dəstəklənən, inkişafyönümlü rəyvermə alan və əməkdaşlıq mühitində çalışan müəllimlər yeni tədris metodlarını tətbiq etməyə daha çox meyilli olurlar. Belə məktəblərdə innovativ yanaşmaların tətbiqi və şagird nailiyyətləri daha yüksək olmuşdur.

OECD-nin 2020-ci ildə nəşr olunmuş TALIS 2018 hesabatının ikinci cildində müəllimlərin peşəkar inkişafı ilə peşəkar məmnunluq səviyyəsi arasında əlaqə də araşdırılmışdır. Hesabat göstərmişdir ki, davamlı peşəkar inkişaf imkanlarına malik olan müəllimlər öz peşələrindən daha çox məmnunluq duyur, məktəblərinə daha bağlı olur və peşəni tərketmə meyilləri daha aşağı olur.

TALIS araşdırmaları peşəkar inkişaf üçün ən effektiv dəstək mexanizmlərinin aşağıdakılar olduğunu göstərir:

- məktəbəsaslı metodik dəstək
- mentorluq və kouçinq proqramları
- peşəkar öyrənmə icmaları
- inkişafyönlü rəyvermə
- həmkar müşahidələri
- birgə dərs planlaşdırılması
- rəqəmsal peşəkar inkişaf platformaları

OECD-nin nəticələri göstərir ki, müəllimlərin peşəkar inkişafı yalnız fərdi məsuliyyət kimi deyil, məktəb və təhsil sistemi səviyyəsində təşkil olunan davamlı dəstək prosesi kimi qəbul edilməlidir. Bu baxımdan metodik xidmət sistemləri müəllimlərin inkişaf ehtiyaclarını müəyyənləşdirən, inkişaf fəaliyyətlərini əlaqələndirən və davamlı peşəkar öyrənməni təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir.

**Mentorluq-fərdiləşdirilmiş dəstək mexanizmləri**

Peşəkar inkişaf sahəsində aparılan tədqiqatlar göstərir ki, bütün müəllimlərin inkişaf ehtiyacları eyni deyil. Bu səbəbdən fərdiləşdirilmiş dəstək mexanizmləri xüsusi əhəmiyyət daşıyır.

Mentorluq təcrübəli müəllim və ya metodistin daha az təcrübəli müəllimə peşəkar dəstək göstərməsi prosesidir. Mentor müəllimə yalnız məsləhət vermir, həm də onun reflektiv düşünməsinə və öz potensialını reallaşdırmasına kömək edir.

Sinqapur Milli Təhsil İnstitutunun araşdırmalarına əsasən, mentorluq proqramlarında iştirak edən müəllimlər:

- peşəkar özünəinam baxımından daha yüksək nəticələr göstərirlər;
- innovativ metodlardan daha çox istifadə edirlər;
- peşəni tərketmə riskini daha az nümayiş etdirirlər.

Kouçinq isə mentorluqdan fərqli olaraq müəllimə hazır həllər təqdim etməyi deyil, onun öz həll yollarını tapmasına şərait yaratmağı nəzərdə tutur.

Müasir metodik xidmətdə mentorluq və kouçinq yanaşmaları bir-birini tamamlayan mexanizmlər kimi tətbiq edilir.

**Peşəkar öyrənmə icmaları və əməkdaşlıq mədəniyyəti.**

Tədqiqatlar göstərir ki, müəllimlər ən yaxşı şəkildə digər müəllimlərlə əməkdaşlıq etdikdə öyrənirlər. Bu səbəbdən peşəkar öyrənmə icmaları müasir peşəkar inkişaf sistemlərinin əsas komponentlərindən biri hesab edilir.

Riçard DuFour tərəfindən inkişaf etdirilmiş peşəkar öyrənmə icması modeli müəllimlərin kollektiv öyrənməsinə əsaslanır.

Peşəkar öyrənmə icmalarında müəllimlər:

- şagird nəticələrini təhlil edir
- tədris problemlərini müzakirə edir
- birgə planlaşdırma aparır
- dərs nümunələrini araşdırır
- yeni metodları sınaqdan keçirirlər

Kanada və Avstraliyada aparılmış araşdırmalar göstərir ki, peşəkar öyrənmə icmalarının fəaliyyət göstərdiyi məktəblərdə müəllimlərin əməkdaşlıq səviyyəsi və şagird nailiyyətləri daha yüksək olur.

Əməkdaşlıq mədəniyyəti müəllimlər arasında etimad yaradır və peşəkar inkişafın davamlılığını təmin edir.

**İnkişafyönlü rəyvermə peşəkar inkişafın hərəkətverici qüvvəsi kimi.**

Con Hettinin meta-analizləri göstərir ki, peşəkar fəaliyyətə dair keyfiyyətli rəy müəllim inkişafına təsir edən ən güclü amillərdən biridir. Lakin müasir yanaşmada rəyvermə qiymətləndirmə və ya tənqid kimi deyil, inkişaf vasitəsi kimi qəbul edilir.

İnkişafyönlü rəyvermə:

- müşahidə olunan faktlara əsaslanır
- güclü tərəfləri müəyyənləşdirir
- inkişaf imkanlarını göstərir
- növbəti addımları planlaşdırmağa kömək edir

Belə rəyvermə müəllimin öz fəaliyyətini daha dərindən təhlil etməsinə şərait yaradır və reflektiv düşünmə bacarıqlarını inkişaf etdirir.

Araşdırmalar göstərir ki, etimada əsaslanan rəyvermə müəllimlərin yeni metodlardan istifadə ehtimalını artırır.

**Rəqəmsal texnologiyalar və süni intellektin rolu.**

Rəqəmsal texnologiyalar müəllimlərin peşəkar inkişaf imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. UNESCO-nun hesabatlarında qeyd edilir ki, onlayn peşəkar inkişaf platformaları müəllimlərə:

- beynəlxalq təcrübəyə çıxış
- fərdiləşdirilmiş öyrənmə
- çevik öyrənmə
- peşəkar şəbəkələrə qoşulma

imkanı yaradır.

Son illərdə süni intellekt alətlərinin inkişafı da müəllimlərin peşəkar inkişafında yeni mərhələ yaratmışdır.

Süni intellekt:

- fərdi inkişaf ehtiyaclarını müəyyənləşdirə bilir;
- fərdiləşdirilmiş öyrənmə marşrutları təqdim edir;
- dərs planlaşdırılmasına dəstək verir;
- qiymətləndirmə və təhlil proseslərini asanlaşdırır.

Bu imkanlar müəllimlərin peşəkar inkişafını daha çevik və effektiv edir.

Finlandiyada müəllimin inkişafı məktəbin gündəlik fəaliyyətinin ayrılmaz hissəsi hesab olunur. Müəllimlər həftəlik iş vaxtlarının müəyyən hissəsini əməkdaşlıq və peşəkar öyrənməyə sərf edirlər.

Sinqapurda müəllimlər üçün illik minimum 100 saat peşəkar inkişaf fəaliyyəti nəzərdə tutulur. Bu fəaliyyətlər mentorluq, fəaliyyət tədqiqatları və peşəkar öyrənmə icmaları ilə dəstəklənir.

Estoniyada müəllimlərin peşəkar inkişafı rəqəmsal platformalar və məktəbəsaslı inkişaf proqramları vasitəsilə həyata keçirilir. Bu yanaşma ölkənin PISA nəticələrində yüksək göstəricilər əldə etməsinə töhfə verən amillərdən biri hesab olunur.

Kanadada müəllimin inkişafı əsasən kollektiv öyrənmə və məktəbdaxili əməkdaşlıq üzərində qurulmuşdur.

Bu ölkələrin təcrübəsi göstərir ki, davamlı peşəkar inkişaf yalnız təlimlər vasitəsilə deyil, sistemli dəstək mexanizmləri vasitəsilə təmin olunur. Tədqiqatlara görə, müəllimlərin peşəkar inkişafı üçün vahid mexanizm mövcud deyil. Ən effektiv sistem müxtəlif dəstək mexanizmlərinin inteqrasiyasına əsaslanır.

Məktəbəsaslı metodik xidmət, mentorluq, peşəkar öyrənmə icmaları, inkişafyönlü rəyvermə və rəqəmsal texnologiyalar birlikdə tətbiq edildikdə müəllim inkişafında daha yüksək nəticələr əldə olunur.

Azərbaycan təhsil sistemində son illərdə metodik xidmətin gücləndirilməsi istiqamətində görülən işlər də bu yanaşmaların tətbiqi üçün əlverişli imkanlar yaradır. Xüsusilə məktəbdaxili metodistlər, aparıcı metodistlər və baş metodistlər vasitəsilə qurulan dəstək sistemi müəllimlərin davamlı peşəkar inkişafını təmin etmək baxımından mühüm potensiala malikdir.

Peşəkar inkişaf müasir müəllimin fəaliyyətinin ayrılmaz hissəsidir. Beynəlxalq tədqiqatlar göstərir ki, müəllimlərin inkişafında ən effektiv nəticələr sistemli və davamlı dəstək mexanizmlərinin tətbiqi zamanı əldə edilir.

Məktəbəsaslı metodik xidmət, mentorluq, kouçinq, peşəkar öyrənmə icmaları, inkişafyönlü rəyvermə və rəqəmsal öyrənmə imkanları müəllimlərin peşəkar inkişafını dəstəkləyən əsas mexanizmlərdir. Bu mexanizmlərin qarşılıqlı əlaqədə tətbiqi müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəlməsinə, tədrisin keyfiyyətinin yaxşılaşmasına və şagird nailiyyətlərinin artmasına mühüm töhfə verir.

Beləliklə, peşəkar inkişaf üçün dəstək mexanizmlərinin gücləndirilməsi təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi istiqamətində strateji əhəmiyyət daşıyan məsələlərdən biri hesab edilməlidir.

## Ədəbiyyat


1. Darling-Hammond, L., Hyler, M. E., & Gardner, M. (2017). *Effective Teacher Professional Development*. Palo Alto: Learning Policy Institute.
2. Day, C. (1999). *Developing Teachers: The Challenges of Lifelong Learning*. London: Falmer Press.
3. DuFour, R., DuFour, R., Eaker, R., & Many, T. (2010). *Learning by Doing: A Handbook for Professional Learning Communities at Work*. Bloomington: Solution Tree Press.

4. Fullan, M. (2007). *The New Meaning of Educational Change* (4th ed.). New York: Teachers College Press.
5. Hanushek, E. A. (2011). *The Economic Value of Higher Teacher Quality*. Economics of Education Review, 30(3), 466–479.
6. Hargreaves, A., & Fullan, M. (2012). *Professional Capital: Transforming Teaching in Every School*. New York: Teachers College Press.
7. Hattie, J. (2009). *Visible Learning: A Synthesis of Over 800 Meta-Analyses Relating to Achievement*. London: Routledge.
8. OECD. (2014). *TALIS 2013 Results: An International Perspective on Teaching and Learning*. Paris: OECD Publishing.
9. OECD. (2019). *TALIS 2018 Results (Volume I): Teachers and School Leaders as Lifelong Learners*. Paris: OECD Publishing.
10. OECD. (2020). *Teachers and School Leaders as Valued Professionals: TALIS 2018 Results (Volume II)*. Paris: OECD Publishing.
11. Timperley, H. (2011). *Realizing the Power of Professional Learning*. Maidenhead: Open University Press.
12. UNESCO. (2023). *Global Report on Teachers: Addressing Teacher Shortages and Transforming the Profession*. Paris: UNESCO.
13. Villegas-Reimers, E. (2003). *Teacher Professional Development: An International Review of the Literature*. Paris: UNESCO International Institute for Educational Planning.
14. Wei, R. C., Darling-Hammond, L., Andree, A., Richardson, N., & Orphanos, S. (2009). *Professional Learning in the Learning Profession*. Dallas: National Staff Development Council.
15. Schleicher, A. (2018). *World Class: How to Build a 21st-Century School System*. Paris: OECD Publishing.
16. Avalos, B. (2011). Teacher Professional Development in Teaching and Teacher Education over Ten Years. *Teaching and Teacher Education*, 27(1), 10–20.
17. Guskey, T. R. (2002). Professional Development and Teacher Change. *Teachers and Teaching: Theory and Practice*, 8(3), 381–391.
18. Opfer, V. D., & Pedder, D. (2011). Conceptualizing Teacher Professional Learning. *Review of Educational Research*, 81(3), 376–407.
19. European Commission. (2022). *Teachers in Europe: Careers, Development and Well-being*. Luxembourg: Publications Office of the European Union.
20. World Bank. (2018). *World Development Report 2018: Learning to Realize Education's Promise*. Washington, DC: World Bank.